

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 236 (23.878)

*18 dekabr 2021-ci il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib. Görüşdə Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. Ticarət dövriyyəsinin artdığı xüsusi qeyd olunub. İqtisadi əməkdaşlığın daha da genişlənməsi üçün yaxşı potensialın olduğu bildirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Soçi görüşü məmnunluqla xatırlanıb. Aleksey Overçukun səfərinin iqtisadi sahədə əməkdaşlıq üzrə ilin yekunlarının müzakirəsi üçün yaxşı imkan yaratdığı vurğulanıb.

Söhbət zamanı Rusiya-Azərbaycan-Ermənistan Baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli komissiyanın fəaliyyətinə toxunulub, kommunikasiyaların açılması və digər məsələlər müzakirə olunub. Görüşdə Azərbaycanla Rusiya arasında əlaqələrin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.



## Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında mətbuatın inkişafında səmərəli fəaliyyətlərinə görə:

Həsənov Səbuhi Elşad oğlu

Məmmədov Muxtar Məmməd oğlu – **"Əməkdar jurnalist"** fəxri adı ilə;

Ağayev Çingiz Cəfər oğlu

Heydərova Esmira Salman qızı

Mənsumova Şəraf Nağı qızı

Səfərov Əsədulla Müqəddəs oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 dekabr 2021-ci il*

## Naxçıvanda yeni istehsal müəssisələrinin təqdimatı olub

Muxtar respublikada sahibkarlığın inkişafı üçün əlverişli mühit formalaşdırılıb. Həyata keçirilən tədbirlər nəticəsində hər il yeni istehsal sahələri yaradılır, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artırılır.

Dekabrın 17-də Naxçıvan şəhərində müxtəlif təyinatlı yeni istehsal və xidmət sahələrinin təqdimatı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev çıxış edərək demişdir ki, muxtar respublikada iqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına da xüsusi önəm verilir, mövcud resurslar istehsala cəlb edilir. Ötən dövrdə özəlləşdirilmə nəticəsində müəssisələrə investisiya cəlb olunmuş, müasir avadanlıqlarla təchiz edilmiş, yeni istehsal sahələri yaradılmışdır. Həmin müəssisələrdə istehsalın canlanması muxtar respublikanın sosial-iqtisadi inkişafını daha da sürətləndirmişdir. Bu sahəyə iş adamlarının aktiv şəkildə cəlb edilməsi, o cümlədən özəlləşdirilən müəssisələrin müasir əsaslarla yenidən qurulması və fəaliyyətinin genişləndirilməsi məqsədilə nazirliyin sərəncamına verilmiş "Xalça" Açıq Səhmdar Cəmiyyətinin balansında olan tikililər sahibkarlıq subyektləri tərəfindən özəlləşdirilmişdir. Cəmiyyətin istehsalat korpusunda 7 müxtəlif təyinatlı müəssisə fəaliyyət göstərəcəkdir.



İşlə təmin olunan Mahir Dünyamalıyev kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin ***"Hər bir sahibkar unutmamalıdır ki, o, həm öz mənafeyi, həm də ölkəmizin mənafeyi, ümumxalq mənafeyi üçün çalışmalıdır"***, – fikrini xatırladaraq demişdir: Bu gün istifadəyə verilən müəssisələrdə həm sahibkarın, həm də dövlətin mənafeyi qorunur. Sahibkarlar bazarı araşdıraraq investisiya qoyulacaq sahələri müəyyənləşdirmişdir. Dövlət isə müəyyən güzəştlər tətbiq etmiş, investisiya təşviqi sənədləri vermiş, ərazi ayrılmış, nəticədə, yeni istehsalat sahələri yaradılmışdır. Bütün bunlar isə ümumxalq işinə böyük töhfədir. Yeni istehsal sahələrinin fəaliyyətə başlaması tələbatın idxal deyil, yerli istehsal hesabına ödənilməsinə imkan verəcəkdir. Bir sözlə, həyata keçirilən tədbirlər ölkəmizin inkişafına xidmət edir.

Ali Məclisin Sədri demişdir: Ölkəmizdə iqtisadi inkişafın və sabitliyin təmin olunması, ümummilli liderimiz Heydər Əliyevin yolunun uğurla davam etdirilməsi işğal altında olan torpaqlarımızın azad olunmasına imkan verdi. Bu gün həm işğaldan azad olunmuş ərazilərdə, həm də ölkəmizin digər bölgələrində abadlıq-quruculuq işləri həyata keçirilir. Bu tədbirlərin tərkib hissəsi olaraq sahibkarlıq fəaliyyəti də dövlət siyasətinin əsas istiqaməti kimi dəstəklənir, sahibkarlar dövlətin, dövlət isə sahibkarların mənafeyini qoruyur. Yeni iş yerlərinin açılması isə ölkəmizdə əhalinin yaşayış səviyyəsinin yaxşılaşmasına töhfə verir.

Ali Məclisin Sədri bu işdə əməyi olanlara təşəkkürünü bildirmiş, yaradılan şəraitlə maraqlanmışdır.

Bildirilmişdir ki, istehsalat sahəsində 7 müxtəlif təyinatlı müəssisə fəaliyyət göstərəcəkdir. Bunlar tullantıların təkrar emalı, mebel istehsalı sahəsi, ərzaq və məişət avadanlıqlarının saxlanması anbarı, ərzaq məhsullarının paketlənməsi və logistik mərkəz, 2014-cü ildə "AKİ Əczaçılıq Anbar" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yaradılmış uşaq bezi istehsalı, tibbi spirtin qablaşdırılması və mebel istehsalı sahələridir. Müəssisələrdə, ümumilikdə, 215 iş yeri yaradılmışdır. Ümumilikdə, müəssisələrin qurulmasına





*Ardı 2-ci səhifədə*





6 milyon 509 min manat investisiya qoyulmuşdur ki, bunun da 730 min manatı dövlət maliyyə dəstəyidir.

Məlumat verilmişdir ki, “Cahan Holdinq” Kommersiya Şirkətləri İttifaqı tərəfindən yaradılan “Tudor Logistik və Sənaye Mərkəzi” əhalinin zəruri ərzaq məhsullarına olan tələbatının ödənilməsində mühüm rol oynayacaq. Burada qənd istehsalı və şəkər tozunun, dənli bitkilərin və çayın qablaşdırılması bölmələri yaradılmışdır.

Ali Məclisin Sədri müəssisəni işə salmışdır.

İllik istehsal gücü 4880 ton olan müəssisədə qənd, şəkər tozu, dənli bitkilərin və çayın qablaşdırılması olmaqla, 57 çeşiddə məhsul istehsal olunacaqdır. İstehsal sahəsi ilə yanaşı, hazır məhsul və xammal anbarı, yeməkxana, 5 iş otağı, iclas zalı, laboratoriya və digər xidməti otaqlarda vardır. Müəssisədə yaradılan anbarda strateji ərzaq məhsullarının saxlanması təmin ediləcəkdir ki, bu da əhalinin və yerli istehsal müəssisələrinin bu məhsullara olan tələbatının fasiləsiz təmin edilməsinə və daxili bazarın qorunmasına töhfə verəcəkdir. İstehsal olunan məhsulların muxtar respublikanın tələbatını ödəməklə yanaşı, ölkəmizin digər regionlarına da satışı nəzərdə tutulmuşdur.

Mebel istehsalı sahələrində qonaq, yataq və yumşaq mebel dəstləri, qapı-pəncərə istehsal ediləcəkdir. “Güvən Qida” topdansatış müəs-




sisəsində anbar və digər xidmət sahələri yaradılmışdır. Burada, xüsusilə ailə təsərrüfatı məhsullarının qablaşdırılması üçün bölmə ayrılmışdır.

Sahibkar Firdovsi Cabbarov yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

“Soliton” mağazalar şəbəkəsi tərəfindən ərazidə anbar yaradılmışdır. “Naxçıvan Təmiz Şəhər” Məhdud Məsuliyyətli Cəmiyyətində 1 növdə əridilmiş xammal istehsalı, kağız tullantıların, pet butulkaların və alüminium taraların yığılması və kiplənməsi nəzərdə tutulmuşdur. Ay ərzində 120 ton doğranmış plastik və polietilen torbaların əridilməsi, 130 ton kiplənmiş məmulatlar istehsal olunacaqdır. Bu da ekoloji təmizliyin qorunmasına mühüm töhfə verəcəkdir. 2014-cü ildə “AKİ Əczaçılıq Anbar” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yaradılmış uşaq bezi istehsalı, tibbi spirtin qablaşdırılması sahələrinə baxış zamanı bildirilmişdir ki, müəssisədə dəqiqədə 350 ədəd olmaqla, 6 ölçüdə uşaq bezi istehsal olunur.

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov sahibkarlar adından minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri istehsal olunan məhsulların keyfiyyətinə nəzarət olunması, qablaşdırmaya diqqət yetirilməsi, yeni biznes layihələrinin təqdim olunması, yerli xammalla işləyəcək müəssisələrə üstünlük verilməsi və daxili bazarın qorunması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

---

“Şərq qapısı” – 100

# “Şərq qapısı” dünyası

***Azərbaycanın digər regionlarında olduğu kimi, Naxçıvanda da ziyalılar XIX əsrin ikinci yarısından etibarən Azərbaycan, Rusiya və Şərq mətbuatında iştirak etmişlər. Naxçıvan ziyalılarının mətbuatla əlaqələrinin yaranması və genişlənməsi regionda milli maarifçilik hərəkatının inkişafına müsbət təsir göstərmişdir. Yerli ziyalıların təşəbbüsü ilə dünyanın müxtəlif yerlərindən alınan “Tərcüman” (Baxçasaray), “Həblülmətin” (Kəlküttə), “Süreyya”, “Pərvəriş” (Qahirə), “Əxtər” (Tehran), “Novoye obozreniye” (Peterburq), “Kavkaz” (Tiflis) və sair mətbuat orqanları Naxçıvan maarifçiləri arasında geniş şəkildə oxunub müzakirə olunmuşdur.***

Naxçıvanda müxtəlif qəzetlərin xüsusi təmsilçilərinin müəyyənləşdirilməsi mətbuat orqanları ilə əməkdaşlığın və əlaqələrin yaranmasına və inkişaf etməsinə səbəb olmuşdur. Qurbanəli Şərifzadənin “Həblülmətin”, Əliməmməd Xəlilovun “Kavkaz”, Eynəli bəy Sultanovun “Novoye obozreniye”, Məhəmməd Tağı Sidqinin, Paşa ağa Sultanovun “Tərcüman” qəzetlərinin bölgə üzrə daimi müvəkkili vəzifəsini daşımaları abunəçilərin sayca artması ilə bərabər, həm də adıçəkilən qəzetlərdə Naxçıvana dair xəbərlərin, məlumatların dərc olunmasına şərait yaratmışdır. Axtarışlar göstərir ki, “Əkinçi” qəzeti də Naxçıvanda alınıb oxunmuşdur. Mətbuatla əlaqələrin genişlənməsində Məhəmməd ağa Şahtaxtlının nəşr etdirdiyi “Şərqi-Rus” qəzeti mühüm rol oynamışdır. Cəlil Məmmədquluzadənin baş redaktoru olduğu “Molla Nəsrəddin” jurnalında da Naxçıvanın əhli-qələmləri fəal iştirak etmişlər.

Bütün bunlarla bərabər, Naxçıvanda ilk mətbuat orqanı XX əsrin ikinci onilliyində yaradılmışdır. Belə ki, 1 noyabr 1921-ci ildə Naxçıvan Sosialist Şura Cümhuriyyətinin Cavanlar İttifaqı Ölkə Komitəsinin orqanı olan “Cavanlar həyatı” qəzetinin nəşrə başlaması ilə burada qəzetçilik işinin təməli qoyulmuşdur. Bundan sonra Naxçıvanda “Füqəra səsi” adlı başqa bir qəzet çap olunmuşdur. Cəmisi bir neçə sayı çap olunan həmin qəzetlərin indiyədək heç bir nüsxəsi qalmamış, yalnız haqqında müəyyən məlumatlar dövrümüzə qədər gəlib çıxmışdır.

Naxçıvanda mükəmməl, əsaslı və davamlı şəkildə çap olunan mətbuat orqanı “Şərq qapısı” qəzetidir. “Şərq qapısı” bir əsr ərzində ardıcıl şəkildə fəaliyyət göstərib, özünün qəzetçilik və publisistika məktəbini yaratmış mətbuat orqanıdır. “Şərq qapısı” qəzeti 9 noyabr 1921-ci il tarixdən etibarən kiçik fasilələrlə bu günədək fəaliyyətini uğurla davam etdirməkdədir. Naxçıvan Xalq Komissarları Şurasının sədri Həmid Sultanovun köməyi ilə nəşrə başlamış “Şərq qapısı” qəzetinə keçən iyirminci illərində Naxçıvan Xalq Komissarı Həmid Mahmudov və nazirliyin digər məsul şəxsləri: Rzaqulu Axun-




dov, Vahab Həsənzadə, Əli Həsənzadə, Həsən Əlizadə, Əlisəttar Qılmanov və Abbas Gülməmmədov qısa müddətdə bir-birlərini əvəz etməklə redaktorluq etmişlər. “Şərq qapısı” qəzeti 1926-1927-ci illərdə sonralar tanınmış yazıçı kimi çıxış edən Əvəz Sadığın redaktorluğu ilə nəşrini davam etdirmişdir.

“Şərq qapısı” qəzetinin inkişafında 1933-1934-cü illərdə Naxçıvanda yaşayıb, bu qəzetə redaktorluq etmiş gənc yazıçı Əli Vəliyevin mühüm rolu olmuşdur. Əli Vəliyevin redaktorluğu dövründə “Şərq qapısı” qəzetinin ictimai təsir imkanları daha da genişləndirilmiş, ədəbiyyat və mədəniyyət məsələlərinə diqqət artırılmışdır. Öz növbəsində, “Şərq qapısı” qəzetindəki fəaliyyəti Əli Vəliyevə gənc bir yazıçı kimi həyatı və insanları daha yaxından tanımaq baxımından zəngin təcrübə bəxş etmişdir. Əli Vəliyev “Budağın xatirələri” romanında “Şərq qapısı”nın muxtar respublikadakı ədəbi qüvvələrin, yaradıcılıq mühitinin inkişafından söz açarkən aşağıdakıları yazmışdır: “Azərbaycan şura yazıçılarının birinci qurultayı qarşısında hər nömrədə material çap edirdik. Bircə nömrəsi buraxılan “Ədəbiyyat qəzeti”ndə (“Şərq qapısı” qəzetinin ədəbiyyat əlavəsi nəzərdə tutulur – İ.H.) bir çox yeni müəlliflərin əsərləri çap olunmuşdur. Siyasi şöbə rəisinin (həmin dövrdə Naxçıvan MTS-si siyasi şöbəsinin rəisi Mirzə İbrahimovun – İ.H.) ilk hekayəsi maraqlı idi. Qəzetdə təkcə Naxçıvan həyatı işıqlandırılmırdı. Bakıda nəşr olunan kitablar haqqında rəylər də var idi. Proletar Yazıçılar Cəmiyyətinin rəhbər işçilərinə müəyyən eyhamlar vuran baş məqalədə bəzi tənqidçilərin səhvləri də göstərilirdi”.

Xalq yazıçısı Mirzə İbrahimov da 1933-1934-cü illərdə Naxçıvanda çıxan “Surət” adlı qəzetin redaktoru kimi fəaliyyət göstərmiş, Əli Vəliyevlə birlikdə burada ədəbi-ictimai mühitin inkişafı yollarında çalışmışdır. Naxçıvan Maşın-Traktor Stansiyasının orqanı olan “Surət” qəzetindəki fəaliyyəti, paralel olaraq “Şərq qapısı” qəzeti ilə əməkdaşlığı Mirzə İbrahimov üçün böyük həyat məktəbi olmuşdur. Vaxtilə Mirzə İbrahimov dərin səmimiyyətlə etiraf etmişdi ki, “siyasi şöbədəki iş məni xalqın həyatı və mübarizəsi ilə canlı surətdə bağladı. Mənə elə şey verdi ki, onu heç bir kitabdan öyrənmək olmazdı. Mən canlı insanları, onların gərgin əmək, həyəcan və iztirablarla dolu gündəlik həyatını gördüm, o dövrdə kənddəki qızğın sinfi mübarizənin natural səhnələrini müşahidə etdim”.

Mirzə İbrahimovun “Həyat” pyesi onun Naxçıvanda çalışdığı dövrün zəngin hadisələri əsasında yazılmışdır. Əli Vəliyevin “Budağın xatirələri” romanındakı “Araz qırağında” fəslindən Əli Vəliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrünə, “Şərq qapısı” qəzetinin redaktoru kimi fəaliyyətinə aid qiymətli məlumatları da öyrənmək olur.

Siyasi repressiya dövründə ölkədə baş verən ictimai-siyasi hadisələrin gərginliyi ilə əlaqədar olaraq “Şərq qapısı” qəzetinin kollektivi də ciddi təqiblərlə üzləşməli olmuşdur. Qanlı 1937-ci ildə “Şərq qapısı” qəzetinin redaktorları tez-tez dəyişdirilmiş, həmin vəzifədə çalışan Hüseyn Mahmudov, Şirəli Şirəliyev, Ə.Hacızadə, Xəlil Əmirov, Musa İsmayılov siyasi təqiblər və təzyiqlər nəticəsində işdən çıxarılmış, ağır cəzalara məhkum edilmişlər.

İkinci Dünya müharibəsi dövründə, “Şərq qapısı” qəzetinə yazıçı-publisist Məhəmmədəli Tarverdiyevin baş redaktorluq etdiyi 1941-1945-ci illərdə qəzet müharibə illərinin arxa cəbhədəki və döyüş mövqelərindəki ritmini əks etdirmiş, səfərbərlik və vətənpərvərlik ruhunda təsirli yazılar çap etmişdir. Şair İslam Səfərlinin xatirələrindən, şeirlərindən aydın olur ki, müharibə dövründə “Şərq qapısı” qəzeti cəbhə ilə xalq arasında körpü yaradan mətbuat orqanı kimi müharibə bölgələrinə, döyüş səngərlərinə qədər gedib çata bilmişdir. Müharibədən sonrakı dövrlərdə “Şərq qapısı” qəzeti tarixi yolunu davam etdirərək, Azərbaycanda gedən proseslərin zəminində Naxçıvan həqiqətlərini əks etdirmişdir. Müxtəlif illərdə “Şərq qapısı” qəzetinə baş redaktorluq etmiş Manaf Xudiyev (1953-1956), Fərman Tağıyev (1956-1960), Məmməd Bektaşi (1961-1962) və Hüseyn İbrahimov (1962-1965) dövrün ruhunu əks etdirməklə bərabər, regionda baş verən yeniləşmə hadisələrinin, ictimai meyillərin inkişafına da müəyyən diqqət yetirmişlər.

Rəsmi dövlət qəzeti olmasına baxmayaraq, “Şərq qapısı” qəzetində ədəbiyyat və incəsənət məsələlərinə, mədəniyyət tədbirlərinin işıqlandırılmasına həmişə xüsusi diqqət yetirilmiş, sonralar ədəbiyyat və incəsənət məsələlərinə geniş yer ayırmaq “Şərq qapısı” qəzetində təməldən gələn bir ənənə kimi daha da qüvvətləndirilmişdir. “Şərq qapısı” qəzeti Naxçıvan Vilayət Partiya Komitəsinin rəsmi mətbuat orqanı olmaqdan başqa, həm də “Ədəbiyyat və incəsənət” qəzetinin də funksiyalarını həyata keçirmişdir. Müharibədən sonrakı dövrdə, xüsusən də XX əsrin əllinci illərinin ikinci yarısından sonra “Şərq qapısı” qəzetində ədəbiyyat və incəsənət məsələlərinə diqqət daha da artırılmışdır. Ədəbiyyat məsələlərinin önə çıxması keçmiş sovet cəmiyyətində XX əsrin əllinci illərinin ortalarında “Xruşov dövrü” kimi səciyyələnən mərhələnin gətirdiyi “istiləşmədən” başqa, qəzetin redaktorlarının bədii yaradıcılıqla məşğul olduqları ən qaynar dövrünə təsadüf etməsi də əhəmiyyətli rol oynamışdır. Bundan başqa, Azərbaycanda ədəbiyyatda və mətbuatda “altmışıncılar” dalğasının yaranması da, bütövlükdə, ədəbi-mətbu sözə, o cümlədən də “Şərq qapısı”nın ab-havasına müsbət təsir göstərmişdir. “Şərq qapısı” qəzetində çap olunmuş bir çox bədii-publisist yazılardakı milli mövqeyin, vətəndaş münasibətinin bəzi hallarda mərkəzin senzurasından uzaq olduğu üçün Azərbaycan rəsmi mətbuatında baş verən canlanmadan da irəli gəldiyi müşahidə edilir. Buna görə də qeyd etmək olar ki, “Şərq qapısı” qəzeti XX əsrin altmış-yetmişinci illərində daha peşəkar və demokratik bir dövrünü yaşamışdır.

*Ardı 3-cü səhifədə*

1962-1965-ci illərdə qəzetdə “Sadə adamlar haqqında hekayələr” başlığı altında gedən bədii-publisistik materiallar mətbuatda və ədəbiyyatda yenidən sadə insanlara, təkcə onun fəaliyyətinin ideoloji məqamlarına deyil, həm də adi əhvalatlarına, gündəlik yaşayış tərzinə, əmək cəbhəsindəki işinin romantikasına, mənəvi aləminə də qayıdışın əks-sədasına çevrilmişdir. Xüsusən altmış-yetmişinci illərdə “Şərq qapısı” qəzetində oçerk janrında yazıların genişlənməsi qəzetdə sadə insanların həyatı, mənəvi mühiti və fəaliyyətinə diqqətin artmasının göstəricisidir. “Şərq qapısı”nın oçerkləri jurnalistika baxımından olduğu kimi, bədiilik xüsusiyyətləri ilə də diqqəti cəlb edirdi. Bu oçerklər, sözün həqiqi mənasında, sadə əmək adamlarının fəaliyyətinə və yerli ziyalıların axtarışları və nailiyyətlərinə həsr edilmiş publisist hekayələr təsiri bağışlayır. Oçerk janrında yazılmış məqalələr sonrakı mərhələlərdə də yaradıcılıqla davam etdirilmişdir. Fikrimizcə, “Şərq qapısı” qəzetində oçerk mövzusunda elmi cəhətdən əhəmiyyətli bir dissertasiya, sanballı bir monoqrafiya janrı” yazmaq olar. Eyni zamanda “Şərq qapısı” qəzetində felyeton janrı mövzusu da ciddi elmi tədqiqatın mövzusu ola bilər. Müxtəlif illərdə “Şərq qapısı” qəzetində rəngarəng publisistika janrlarında məqalələrlə çıxış etmiş Məmmədəli Tarverdiyev, Sənubər Kərimova, Nurəddin Babayev, Aydın Tarverdiyev və başqalarının yüksək peşəkarlıq səviyyəsindəki jurnalistlik fəaliyyəti, sözün həqiqi mənasında, publisistika sənətkarlığına əsl nümunə sayıla bilər.

Ümumiyyətlə, “Şərq qapısı” qəzetinin fəaliyyətində ideologiyanın təbliği ilə yanaşı, həm də ədəbiyyatda və mətbuatda ölkə həyatının, xalq amilinin, milli-mənəvi dəyərlərin, sadə insanların həyatının təsvirinə və təqdim edilməsinə xüsusi bir meyil olmuşdur. Bu mənada, qəzetin partiya mətbuatı olmasına baxmayaraq, “Şərq qapısı” qəzetindəki xalq və ölkə maraqlarının ifadə olunmasına həmişə xüsusi diqqət yetirilmişdir. “Şərq qapısı” qəzeti ümumi siyasi təbliğatçılıq funksiyasından çox Naxçıvanın tarixinə, mədəniyyətinə, ədəbiyyatına və mənəviyyatın inkişafına uğurla xidmət göstərmişdir.

Xüsusən XX əsrin yetmişinci illərindən etibarən “Şərq qapısı” qəzetinin həyatında yeni tarixi dövr başlanmışdır. Əvvəla, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan Sovetlər İttifaqının ən qabaqcıl respublikalarından biri səviyyəsinə çatdırması və ölkədə milli-mənəvi dəyərlərin inkişafına xüsusi diqqət yetirilməsi mövcud ideologiyaya da öz təsirini göstərmişdir. Bu zamandan etibarən, bütövlükdə, respublika mətbuatında, o cümlədən də “Şərq qapısı” qəzetində Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının çoxəsrlik tarixinin, ədəbiyyatının və milli mədəniyyətin təbliği zamanın əsas sifarişinə çevrilmişdir. Bu tarixi mərhələdə “Şərq qapısı” qəzetində dil məsələlərinə, ədəbiyyat və incəsənətə, mənəviyyata və tarixə həsr olunmuş, vətənpərvərlik ruhunun qüvvətlənməsinə xidmət edən yazılar geniş yer tutmuşdur. Keçən əsrin yetmiş-səksəninci illərində “Şərq qapısı” qəzetində Rəşid Qazıbəyov (1965-1970), Vahid Bağırov (1970-1975), Sənubər Kərimova (1975-1985), Akif Axundov (1986-1990) redaktorluq etmişdir. Qəzetdə dövrün ruhuna uyğun ictimai-mədəni proseslərin əks etdirilməsi təmin edilmiş, bu yolla tarixə qayıdış, milli-mənəvi özünüdərk istiqamətində geniş maarifləndirilmə işləri aparılmışdır.

Sonrakı dövrdə “Şərq qapısı” qəzeti yeni tarixi dövrün vəzifələrini və nailiyyətlərini işıqlandırmaq yollarında fəaliyyət göstərmiş, ölkə mətbuatı miqyasında müasir publisistika nümunələrinin yaradıldığı jurnalistika məktəbinə çevrilmişdir.

“Şərq qapısı”nın “Ədəbiyyat səhifəsi” muxtar respublikada böyük ədəbiyyat cəbhəsinin hərəkətverici qüvvəsi, ədəbi kompası vəzifəsini həyata keçirmişdir. Belə ki, “Ədəbiyyat səhifəsi”ndə bir neçə dəfə sanballı bədii yazılarla çıxış etmək səlahiyyəti qazana bilən istedadlı gənclər Azərbaycan Yazıçılar İttifaqına zəmanət almış hesab olunurdular. Uzun illər ərzində, sözün həqiqi mənasında, “Şərq qapısı” qəzeti ədəbi məktəbi yaradılmışdır. Naxçıvanda yaşayıb-yaratmış elmi-ədəbi qüvvələr “Şərq qapısı” qəzeti ədəbi məktəbində yetişib formalaşmışlar. “Şərq qapısı” qəzetində dərc olunmuş ədəbi icmallar, ədəbiyyatşünaslıq tədqiqatları, ədəbi-tənqidi məqalələr bu qəzet vasitəsilə ədəbi mühitin gedişatının dəyərləndirilməsinə və istiqamətləndirilməsinə xidmət etmişdir. XX əsrin II yarısından bu günə qədər Naxçıvanda yaranmış ədəbiyyat ordusunun bütün üzvləri olan yazıçı və şairləri Müzəffər Nəsirli, Əliyar Yusifli, Kəmalə, Əkbər Məftun, Adil Qasımov, Həmid Arzulu, Elman Həbib, Muxtar Qasımzadə, Asim Yadigar, Xanəli Kərimli, Fərəc Fərəcov, Vaqif Məmmədov, Elxan Yurdoğlu, Nərgiz İsmayılova və başqaları “Şərq qapısı” məktəbini təmsil edirlər.

Naxçıvanda elmin bir çox sahələri: ədəbiyyatşünaslıq, tarix, arxeologiya, dilçilik, folklorşünaslıq kimi elmlərin sürətlə inkişaf etməsinə “Şərq qapısı” qəzeti böyük qapı açmışdır.

Xüsusən ədəbiyyatşünasların böyük bir nəsli “Şərq qapısı” zəminində yetişib formalaşdırılmışdır. Akademik İsa Həbibbəyli, ustad Lətif Hüseynzadə, Yavuz Axundlu, İzzət Maqsudov, Məhərrəm Cəfərli, Hüseyn Həşimli, Yusif Səfərov, Əsgər Qədimov, Fərman Xəlilov kimi elmlər doktorları, İman Cəfərli, Hikmət Mehdiyev, Ramiz Qasımov, Elxan Yurdoğlu, Şəhla Şirəliyeva, Mehriban Sultan və digər filologiya üzrə fəlsəfə doktorları əsas elmi tapıntılarını, mühüm elmi nəticələrini ilk dəfə “Şərq qapısı”nda dərc etdirərək elmi ictimaiyyətə tanıtmışlar.

Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanı olan “Şərq qapısı” qəzetinin adı və mövqeyi regional funksiyaları deyil, böyük strateji mənaları ifadə etdiyi üçün sovet dövlətinin ən yüksək dairələrini düşündürməli olmuşdur. XX əsrin əvvəllərində “Şərq qapısı” adı SSRİ-nin Şərq siyasətinə uyğun gəldiyinə görə məqbul sayılaraq qəbul edilmişdir. Əslində, qəzetə verilən ad bu mətbuat orqanını yaradanların uzaqgörən baxışlarının ifadəsi idi. “Şərq qapısı” adında Azərbaycanın qonşu ölkələrlə münasibətlərdə Naxçıvan Muxtar Respublikasının rolu və yeri məsələsi öz əksini tapmışdır.

Bundan başqa, “Şərq qapısı” sözü keçən əsrin əvvəllərində bolşeviklərin Ermənistan dövləti yaratmaq üçün Zəngəzuru zorla Azərbaycandan qoparmaqla ölkənin əsas ərazisindən təcrid edilmiş Naxçıvanın Şərq tərəfdən olan dayaqları mənasını da ifadə edirdi. Bu ad Sovetlər İttifaqının rəhbərliyindəki Naxçıvana Ermənistanın maraqları bucağından baxan qüvvələrə də cavabın ifadəsi idi. Bütün bunlardan başqa, həm də artıq XX əsrin səksəninci illərindən tədricən Naxçıvan Muxtar Respublikasının yaxın xarici türk-müsəlman dövlətləri ilə, həmin ölkələrdə yaşayan azərbaycanlı əhali ilə əlaqələrinin yaranması ehtimalı sovet rejiminin bu dövrdəki Şərq siyasəti ilə üst-üstə düşmürdü. Analoji proseslər Orta Asiya respublikalarında mövcud idi. Ona görə də sovet hökumətinin Azərbaycanda və Özbəkistanda çıxan yerli qəzetlərin həm də rus dilində eyni adla çap edilməsi haqqındakı bəhanə xarakterli qərarına əsasən “Şərq qapısı” qəzeti 30 oktyabr 1979-cu ildən “Sovet Naxçıvanı” adı ilə hər iki dildə nəşrini davam etdirməli olmuşdur.

Geniş məna daşıyan “Şərq qapısı” əvəzinə müəyyən olunmuş “Sovet Naxçıvanı” adı sosialist ideologiyasının təbliğinə xidmət edən format kimi mövcud rejimin prinsiplərinə daha çox uyğun gəlirdi. Lakin adının dəyişməsinə baxmayaraq, qəzetin yaradıcı kollektivi “Şərq qapısı”nın ənənələrini qoruyub saxlamış və daha da inkişaf etdirmişlər. Rus dilində çıxan “Sovetskaya Naxçivan” qəzetindən isə yalnız ideoloji tribuna kimi yox, həm də muxtar respublikanın daha geniş miqyasda tanıdılması üçün istifadə edilmişdir. Muxtar respublika ziyalıları, “Şərq qapısı”nın kollektivi müxtəlif vasitələrlə doğma qəzetlərinin adının qaytarılması üçün səylər göstərmişlər.

Həmin dövrdə “Sovetskaya Naxçivan” qəzetinin redaktoru olmuş Sənubər Kərimovanın Azərbaycan KP MK Naxçıvan Vilayət Komitəsinə göndərdiyi məktubda rusdilli jurnalist kadrlarının və zəruri maddi-texniki bazanın olmaması səbəbi ilə “Sovetskaya Naxçivan” qəzetinin çap edilməsinin qeyri-mümkünlüyü diqqət mərkəzinə çatdırılmışdır. Məktubda deyilirdi: “Naxçıvanda rus dilində hazırlıqlı qəzet işçiləri olmadığından kadr məsələlərində ciddi çətinliklərlə rastlaşırıq. Peşəkar tərcüməçilər olmadığından tərcüməçi ştatlarına rus dili müəllimlərini cəlb etmişik. Onlar isə tərcümə işini operativ və lazımi keyfiyyətdə yerinə yetirə bilmirlər. Bakıda yaşayan bir neçə tərcüməçiyə müraciət etmişik. Lakin razılıq verməmişlər. …Habelə Bakıdan işə dəvət olunan yoldaşlara mənzil sahəsi ayrılması zəruridir.

Qəzetin rus variantı üçün Naxçıvan mətbəəsində maşın və mexanizmlər çatışmır. Dəfələrlə müraciət olunmasına baxmayaraq, mətbəə bu günədək lazımi texniki avadanlıqla təchiz olunmayıb. Sinkoqrafiya sexi işə salınmayıb. Peşəkar linotipçilər olmadığından yazma sexinə orta məktəb məzunları cəlb olunur.

Qeyd olunan çətinliklər qəzetin rus variantının vaxtında və keyfiyyətli çap edilməsini təhlükə altına alır”.

Beləliklə, ziyalıların səyləri ilə, nəhayət, 1989-cu ildə “Şərq qapısı” qəzetinin adı yenidən bərpa olunmuş, “Şərq qapısı” ruhu davam etdirilmişdir.

“Şərq qapısı” qəzetinin nəşri tarixində 1990-cı ildə daha bir tarixi addım atılmışdır. Yaxın tariximizdən məlum olduğu kimi, 19 yanvar 1990-cı ildə SSRİ dövlətinin dəstəyi ilə Ermənistan SSR Naxçıvan Muxtar Respublikasını işğal etmək niyyətini həyata keçirmək məqsədilə muxtar respublikanın ərazilərinə genişmiqyaslı hərbi hücumlar təşkil etmişdir. Sovet dövlətinin rəhbərliyindən heç bir dəstək ala bilməyən yerli əhalinin tələbi ilə 20 Yanvar 1990-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Soveti həm də Bakıda baş vermiş qanlı hadisələrə etiraz əlaməti olaraq Naxçıvanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etmişdir. “Şərq qapısı” qəzeti həmin qərarı çap etməklə müstəqil Naxçıvan Muxtar Respublikasının mətbuat orqanı funksiyasını həyata keçirmişdir. 1990-cı ilin yanvar-fevral aylarında “Şərq qapısı” qəzetinin 8 sayı “Bütün ölkələrin proletarları, birləşin!” şüarı ilə deyil, “Birlik və demokratiya uğrunda” çağırışlı başlığı ilə çap olunmuşdur. Bu təkcə “Şərq qapısı” qəzetinin yox, XX əsr sovet mətbuatının tarixində nadir hadisədir. Deməli, “Şərq qapısı” qəzeti sovet dövründə müstəqil qəzet kimi fəaliyyət göstərmiş ilk mətbuat orqanıdır.

“Şərq qapısı” qəzetinin senzura nəzarəti olmadan çıxan həmin tarixi saylarında Naxçıvan Muxtar Respublikasının konstitusiya hüquqlarının müdafiəsi, torpaqlarımızın işğaldan qorunmasını təşkil etmək üçün əhalinin səfərbər edilməsi, vətənpərvərlik çağırışlarının xalqa çatdırılması, çaşqınlıq, təxribat yaratmaq niyyətlərinə ayıq-sayıq baxış kimi məsələlər haqqında aktual məqalələr dərc olunmuşdur. Eyni zamanda həmin dövrdə “Şərq qapısı” qəzeti Bakıda Qanlı 20 Yanvar hadisələri zamanı sovet ordusu tərəfindən susdurulmuş ölkə mətbuatının da funksiyalarını yerinə yetirərək faciəli Azərbaycan həqiqətlərinin xalqa və qonşu ölkələr vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasına məsuliyyətlə xidmət etmişdir.

Siyasi rəhbərliyin təzyiqi ilə ölkə mətbuatında görkəmli dövlət xadimi Heydər Əliyevin fəaliyyətinin işıqlandırılmasına məhdudiyyətlərin qoyulduğu 1990-1993-cü illərdə “Şərq qapısı” qəzeti ulu öndərin ideallarının və tarixi addımlarının hər anını cəmiyyətə təqdim etmişdir. Hələ Moskvada həyatının istefadan sonrakı məsuliyyətli dövrünü yaşadığı illərdə “Şərq qapısı” qəzeti xalqımızın ümummilli lideri Heydər Əliyevin “Teatr” jurnalında çap olunmuş müsahibəsini tərcümə edərək oxuculara çatdırmışdır. Fərdi təqaüdçü kimi Azərbaycana qayıtdıqdan sonra Heydər Əliyev ilk müsahibələrindən birini “Şərq qapısı” qəzetinə vermişdir. Hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməmişdən əvvəl Heydər Əliyevin xalqla görüşləri, müxtəlif tədbirlərdə iştirakı və çıxışları “Şərq qapısı” qəzetində özünə yer almışdır. Beləliklə, “Şərq qapısı” qəzeti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin çoxcəhətli fəaliyyətinin şərəfli salnaməsini yaratmışdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrünün bütün məqamları “Şərq qapısı” qəzetində çap olunan məqalələrdə və nadir fotoşəkillərdə qorunub saxlanılır. Ümummilli lider Heydər Əliyev “Şərq qapısı” qəzetinin roluna və xidmətlərinə yüksək qiymət vermişdir. Onun 1990-cı ildə “Şərq qapısı” qəzetinə verdiyi ilk müsahibədə dediyi aşağıdakı sözlər bu qəzetin çoxillik tarixinin pozulmaz naxışları kimi yaddaşlara yazılmışdır: ***“Mən “Şərq qapısı” qəzetinin təsiri ilə tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm. O vaxtdan “Şərq qapısı” nüfuzlu qəzet kimi hafizəmdə qalıb”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov “Şərq qapısı” qəzetinin ideya və peşəkarlıq baxımından nüfuzlu mətbuat orqanı kimi fəaliyyətini davam etdirməsi üçün geniş tədbirlər həyata keçirmiş, ardıcıl olaraq böyük diqqət və qayğı göstərmişdir. Bunun nəticəsidir ki, “Şərq qapısı” qəzeti ən müasir poliqrafiya avadanlıqları ilə təchiz olunmuşdur. Ali Məclis Sədrinin qayğısı sayəsində bu gün “Şərq qapısı” qəzeti ölkə üzrə özünəməxsus yüksək maddi-texniki bazaya malik mətbəəsi olan azsaylı mətbuat orqanlarından biridir. “Şərq qapısı” qəzetinin yaradıcı kollektivi peşəkar jurnalistika ilə məşğul olmaq üçün ən müasir imkanları olan nümunəvi mətbuat evində fəaliyyətlərini davam etdirirlər. Ölkə mətbuatının inkişafına daim böyük qayğı göstərən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə yüksək fəxri adlara layiq görülmüş mətbuat işçiləri arasında Naxçıvan Muxtar Respublikasının jurnalistləri, radio və televiziya işçiləri, o cümlədən “Şərq qapısı” qəzetinin əməkdaşları da vardır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması haqqında 2021-ci il 1 iyun tarixdə Sərəncam imzalaması birəsrlik şərəfli yol keçmiş bu qəzetin tarixi ənənələrinə verilmiş qiymətin və bundan sonrakı fəaliyyətinə göstərilən qayğının əməli ifadəsidir.

“Şərq qapısı” qəzetinin keçdiyi 100 illik məsuliyyətli və uğurlu yol Azərbaycan mətbuatının tarixi inkişafının şərəfli salnaməsidir. “Şərq qapısı” qəzeti – Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının tarixinin və müasir inkişafının güzgüsüdür.

“Şərq qapısı” dünyası – müxtəlif inkişaf mərhələlərində bu qəzetin səmərəli fəaliyyəti yollarında yorulmadan çalışmış, xidmət göstərmiş mətbuat xadimlərinin, qəzetlə əməkdaşlıq etmiş yaradıcı qüvvələrin unudulmaz həyat və sənət dünyasıdır.

*“Şərq qapısı” – əsl qəzetçilik və müstəqil dövlətçiliyə xidmət məktəbidir. Hələ tələbə ikən mənə ilk məqaləmin çap edilməsinin qeyri-adi sevincini yaşatmış, hər ay əlaçı tələbə təqaüdündən çox qonorar aldığım, elmi və ədəbi axtarışlarıma geniş meydan açmış, uzun illər ərzində qələmi yerə qoymadan yazıb-yaratmaq vərdişləri qazanmağımda müstəsna rolu olan doğma qəzetimizin 100 yaşını minnətdarlıq duyğuları ilə ürəkdən təbrik edirəm.*

**İsa HƏBİBBƏYLİ**

***AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik***

## Tələbələrarası yaradıcılıq müsabiqəsinin nəticələri açıqlanıb



Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində Naxçıvan Dövlət Universiteti Yeni Azərbaycan Partiyası ərazi ilk partiya təşkilatının təşəbbüsü ilə keçirilən “Müstəqillik illərində inkişafın Naxçıvan modeli” mövzusunda tələbələrarası yaradıcılıq müsabiqəsinin yekun tədbiri keçirilib.Əvvəlcə müsabiqə iştirakçılarının rəsm əsərlərindən ibarət olan sərgiyə baxış keçirilib.

Tədbiri giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikasında gənclər hərtərəfli qayğı ilə əhatə olunublar və bunu həyatımızın bütün sahələrində görə bilərik. Gənclərə göstərilən qayğının ifadəsidir ki, bu gün muxtar respublikamızda 3 ali və 3 orta ixtisas təhsili müəssisəsi fəaliyyət göstərir. Naxçıvan Dövlət Universiteti və “Naxçıvan” Universitetinin böyük kampusları, Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının bütün texnoloji yeniliklərlə yenidən qurularaq istifadəyə verilməsi gənclərimizin təhsilini seçdiyi ixtisasa uyğun ali səviyyədə davam etdirərək yüksəkixtisaslı kadrlar kimi formalaşmasına şərait yaradır.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk partiya təşkilatının sədri Arzu Abdullayev bildirib ki, tələbələrin uğurlu əməkdaşlığını təmin etmək, onların istedadlarını üzə çıxarmaq üçün məqsədyönlü layihələr icra edilir. Məhz “Müstəqillik illərində inkişafın Naxçıvan modeli” adlı tələbələrarası yaradıcılıq müsabiqəsi də təşkilatımız tərəfindən sözügedən uğurlu layihələrin məntiqi davamıdır.

Vurğulanıb ki, 6 müəssisənin iştirakı ilə 4 istiqamət üzrə – publisistik məqalə və ədəbi nümunələr, tələbə tədqiqat işləri, rəsm əsərləri, videotəqdimat mövzularında keçirilən müsabiqəyə, ümumilikdə, 265 yaradıcılıq nümunəsi təqdim olunub.

Sonra müsabiqə nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıb, tədbir konsert proqramı ilə başa çatıb.

**✍ Məcid RƏŞADƏTOĞLU**

# Dövlət Miqrasiya Xidməti üçün hərtərəfli şərait yaradılıb



***Dekabrın 18-i "Beynəlxalq Miqrant Günü" kimi qeyd olunur.***

Son illər bütün dünyada getdikcə sürətlənən və miqyasını durmadan genişləndirən qloballaşma proseslərinin əsas faktorlarından biri də məhz miqrasiya amilidir. Tarixən çox qədim və mürəkkəb proses olan miqrasiyanın müasir dövrümüzdə bir çox səbəbləri və növləri vardır. Bu gün baş verən müxtəlif siyasi və iqtisadi proseslər miqrasiyanın, xüsusilə sosial-iqtisadi miqrasiyanın genişlənməsinə təsirsiz ötüşməmişdir. Hazırda mövcud miqrantların böyük əksəriyyətini əməkçi miqrantlar təşkil edir ki, bu da onlarla bağlı problemlərə xüsusi diqqət yetirilməsini və bununla bağlı bir çox məsələlərdə dövlətlər tərəfindən vahid yanaşmanın tətbiq olunmasını zəruri edir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra bütün istiqamətlərdə, o cümlədən miqrasiya sahəsində də ardıcıl tədbirlər görülmüşdür. ***"Miqrasiya təbii prosesdir, onun qarşısını almaq olmaz, almaq da lazım deyil və ümumən, pozitiv xarakter daşıyır. Dünyada miqrasiya prosesi bütün ölkələrə, xalqlara aiddir"***, – deyən ulu öndər Heydər Əliyev miqrasiya sahəsində mövcud vəziyyətin və beynəlxalq təcrübənin öyrənilməsini, bu sahədə ölkə qanunvericiliyinin hazırlanması və təkmilləşdirilməsini daim diqqətdə saxlamışdır. Eyni zamanda vaxtilə müxtəlif səbəblərdən miqrasiya etmiş ölkə vətəndaşlarının hərtərəfli dövlət qayğısı ilə əhatə olunması, eləcə də onların üzləşdiyi bütün problemlərin həlli dövlət siyasətinin prioritet vəzifəsi elan edilmişdir. Qısa zaman kəsiyində sürətli sosial-iqtisadi inkişafın, təhlükəsizliyin və sabitliyin təmin olunması, neft və digər önəmli layihələrin gerçəkləşməsi xarici investorların və əməkçi miqrantların ölkəmizə axınına səbəb olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün istiqamətlər üzrə mühüm islahatlar həyata keçirilmiş, Azərbaycan inkişaf edən ölkəyə çevrilmişdir. Hazırda ölkəmizin sürətli inkişafı, sabitlik, həyata keçirilən layihələr, turizmin inkişaf etdirilməsi, həmçinin beynəlxalq əhəmiyyətli tədbirlərin, yarışların, forum və iclasların məhz Azərbaycanda yüksək səviyyədə təşkil edilməsi dünyanın diqqətini respublikamıza yönəldib. Bu səbəbdən də ölkəmizə maraqgöstərən əcnəbilərin sayı hər ötən il artan dinamika ilə inkişaf edir. Azərbaycanda miqrasiya sahəsində mükəmməl qanunvericilik bazası formalaşdırılmış və insan hüquqları sahəsində əsas beynəlxalq hüquqi sənədlərin müddəalarının tətbiqi üçün lazımi siyasi-hüquqi baza yaradılmışdır.

Bu gün Naxçıvan Muxtar Respublikasında da miqrasiya prosesləri qanunvericiliyin tələblərinə uyğun tənzimlənir, bu sahədə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. İdarəetmənin düzgün təşkili, sağlam və əlverişli biznes mühitinin formalaşdırılması, əhalinin həyat səviyyəsinin və sosial rifah halının daha da yaxşılaşdırılması, ictimai-siyasi sabitlik, mövcud təhlükəsizlik mühitinin yaradılması, həmçinin miqrasiya sahəsində qanunvericilik bazasının sadələşdirilməsi Naxçıvan Muxtar Respublikasına miqrasiya axınını daha da sürətləndirib. Bu gün muxtar respublikada miqrasiya sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti ilə bağlı bütün zəruri tədbirlərin reallaşdırılması, habelə daxili bazarın qanunsuz miqrantlardan qorunması təmin olunub. Miqrasiya sahəsində dövlət siyasəti muxtar respublikanın sosial-iqtisadi maraqlarının qorunması ilə yanaşı, miqrantların, o cümlədən əməkçi miqrantların, onların ailə üzvlərinin həyat və fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına, hüquqlarının müdafiəsinə yönəldilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Qanuni əsaslarla ölkəyə gələn hər bir əcnəbi nəzərdə tutulmuş bütün hüquq və azadlıqlardan istifadə etməlidir. Bunun üçün hər cür şərait yaradılmış və hüquqi baza formalaşdırılmışdır".***

Naxçıvan Muxtar Respublikasında miqrantların hüquq və azadlıqlarının qorunması və təminatına daim xüsusi diqqətlə, həssaslıqla yanaşılır və bu istiqamətdə həyata keçirilən tədbirlər müasir standartlar səviyyəsinə çatdırılıb. Hüquq və azadlıqların qorunması sahəsində görülən işlərin tərkib hissəsi kimi xidmətin Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinin fəaliyyəti də mühüm əhəmiyyət kəsb edir. Qanunvericiliyin tələblərini pozmuş, maddi vəsaiti və yaşayış yeri olmayan miqrantların, o cümlədən qaçqın statusu almaq istəyənlərin mərkəzdə müvəqqəti qalmaq üçün könüllü müraciəti təmin edilib.

Muxtar respublikada sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi, sərhəd-buraxılış məntəqələrində sürətli keçidin təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi istiqamətində Dövlət Miqrasiya Xidməti tərəfindən mühüm addımlar atılıb. Belə ki, əcnəbilərin olduğu yer üzrə qeydiyyatı xeyli sadələşdirilmiş, qeydiyyatın aparılmasına əlverişli şərait yaradılmış, şəxsən müraciətləri ilə yanaşı, elektron qaydada da müraciətləri təmin edilmişdir. Həmçinin muxtar respublika ərazisində fəaliyyət göstərən mehmanxanalarla Dövlət Miqrasiya Xidməti arasında ölkəyə gələn əcnəbilərin olduğu yer üzrə qeydiyyata alınması proseduru sadələşdirilmiş formada elektron qaydada həyata keçirilir. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində əcnəbilərin də muxtar respublikamızda əmək fəaliyyəti ilə məşğul olması mütəmadi olaraq diqqət mərkəzində saxlanılır, əməkçi miqrantların muxtar respublikada qanunsuz olaraq əmək fəaliyyətinə cəlb edilməsinin qarşısının alınması məqsədilə maarifləndirici söhbətlər aparılaraq müxtəlif tədbirlər həyata keçirilir.

Beynəlxalq təcrübələrdən də göründüyü kimi, hüquq və vəzifələrini, eləcə də miqrasiya qanunvericiliyini bilməyən əcnəbilər qanunsuz miqranta çevrilmə təhlükəsi ilə üzləşə bilərlər. Dövlət Miqrasiya Xidməti əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin muxtar respublikaya daxil olduğu ilk andan etibarən onların məlumatlandırılması və maarifləndirilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirir. Bu baxımdan sərhəd-keçid məntəqələrində yerləşdirilmiş elektron məlumat köşkləri üzərində müvəqqəti və daimi yaşamaq, olduğu yer üzrə qeydiyyata alınma, haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi və müddətinin uzadılması ilə bağlı məlumatlar Azərbaycan, rus və ingilis dillərində yazılı və səsli formada ölkə vətəndaşlarına, habelə əcnəbi və vətəndaşlığı olmayan şəxslərə təqdim olunur. Həmçinin sərhəd-keçid məntəqələrində miqrasiya bölmələrinin əməkdaşları tərəfindən muxtar respublikaya səfər edən əcnəbi və vətəndaşlığı olmayan şəxslərə operativ qaydada şifahi olaraq hüquq və azadlıqları, vəzifələri ilə bağlı mühüm məlumatlar verilir, miqrasiya qanunvericiliyi ilə bağlı yarana biləcək istənilən çətinlik qarşısında müraciətetmə qaydaları ətraflı izah olunur. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bu gün Naxçıvan Muxtar Respublikasında miqrasiya sahəsində baş verə biləcək qanun pozuntuları minimum həddə çatıb.

Ötən dövr ərzində ölkə vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərə göstərilən xidmətlərin operativliyini və keyfiyyətini artırmaq məqsədilə bir sıra ciddi tədbirlər həyata keçirilib. Belə ki, Dövlət Miqrasiya Xidməti əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə "Elektron hökumət" portalı üzərindən 9 sahə üzrə xidmət göstərir. Həmin şəxslərə iş icazələrinin verilməsi və müddətinin uzadılması da bu xidmət növlərinə daxildir. Əməkçi miqrantların işə götürülmə prosedurunu sadələşdirmək üçün xidmətin rəsmi internet səhifəsi üzərində "Elektron xidmətlər" bölməsi yerləşdirilmiş, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən iş icazələrinin və onun əsasında muxtar respublika ərazisində yaşamaq hüququ verən müvafiq icazələr üçün müraciətetmə imkanı yaradılmışdır. Eyni zamanda bu xidmət növləri üzrə dövlət rüsumlarının internet üzərindən ödənilməsi də onlayn həyata keçirilir. Dövlət Miqrasiya Xidmətinin "202 – Miqrasiya Məlumat Mərkəzi"nin fəaliyyəti də miqrasiya sahəsi üzrə qanunvericilik və sənədlərin icrası ilə bağlı informasiyaları əldə etmək hüququnun təmini baxımından mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Dövlət Miqrasiya Xidmətinin qarşısına qoyduğu mühüm vəzifələrdən biri də əcnəbilərin qanunlara əməl etməklə bərabər, həm də Azərbaycan Respublikasının tarixini və mədəniyyətini də öyrənməsidir. Bu mövzunun aktuallığı və əhəmiyyəti hər zaman diqqətdə saxlanılaraq muxtar respublikada müvəqqəti yaşayan və əmək fəaliyyəti ilə məşğul olan əcnəbilərin hüquqları qorunur, onlarla muxtar respublikanın tarixi, mədəniyyəti və turizm imkanlarının təbliği ilə bağlı müxtəlif maarifləndirici tədbirlər keçirilir, muzeylərə ekskursiyaları təşkil olunur.

Muxtar respublikada sosial-iqtisadi inkişafın təmin edilməsi və bu istiqamətdə həyata keçirilən sistemli tədbirlər, infrastrukturun və sosial xidmətlərin daha da təkmilləşdirilməsi, innovativ yeniliklərin tətbiqi, eyni zamanda ictimai-siyasi sabitliyin, təhlükəsizliyin mütləq surətdə qorunması insan hüquq və azadlıqlarının səmərəli təmin edilməsi və müdafiəsinə münbit zəmin yaratmışdır. Dövlət Miqrasiya Xidmətinin yüksək peşəkarlığa, mənəvi, eləcə də fiziki hazırlığa malik kadr potensialı tərəfindən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının etibarlı təmin edilməsi istiqamətində işlər daim diqqət mərkəzində saxlanılacaq, bu sahədə səmərəli hüquqi mexanizmlərin tətbiqi bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən ümumtəhsil məktəblərinin futbol idman klubları arasında futzal üzrə muxtar respublika birinciliyinə yekun vurulub.***

## Muxtar respublika birinciliyi başa çatıb



Naxçıvan Muxtar Respublikası Təhsil, Gənclər və İdman nazirliklərinin birgə təşkil etdiyi birincilikdə şəhər və rayonların 9 komandası olimpiya sistemi üzrə mübarizə aparıb.

Birinciliyin bağlanış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Ramil Hacı bildirib ki, bu gün muxtar respublikada idmanın inkişafına xüsusi diqqət və qayğı ilə yanaşılır. Məhz bunun nəticəsidir ki, bütün təhsil ocaqlarında uşaq və yeniyetmələrin idmana cəlbi yönündə mühüm işlər görülür, idman klubları yaradılır. Məktəblilərin asudə vaxtlarının səmərəli təşkil olunması, onların idmana cəlbi istiqamətində aparılan işlər həm də şagirdlərin sağlam fərd kimi cəmiyyətə inteqrasiyasıdır. Nazir keçirilən birincilikdə qalib gələn komandaları təbrik edib.

Muxtar respublikanın təhsil müəssisələrində yaradılan idman klubları barədə danışan Naxçıvan Muxtar Respublikası təhsil naziri Rəhman Məmmədov vurğulayıb ki, idmanın müxtəlif növlərinin inkişafına şəraitin yaradılması, uşaq və gənclərin idmana cəlbinin kütləvi xarakter almasının təmin edilməsi, eləcə də istedadlı idmançıların üzə çıxarılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı" təsdiq olunub. Proqramın icrası məqsədilə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində kadr potensialı və mövcud şərait nəzərə alınmaqla 185 idman klubu yaradılıb. Ali Məclis Sədrinin tapşırığı ilə həmin idman klubları idman avadanlıqları ilə təchiz olunub. Muxtar respublikada idmanın hər zaman diqqət mərkəzində saxlanılan və təşviq edilən bir sahə olduğunu bildirən təhsil naziri idmançıları təbrik edib, göstərilən diqqət və qayğıya görə təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Uşaq futbolunun inkişafı, məktəblilərin fiziki hazırlığı və idman vərdişlərinin artırılması, respublika səviyyəli yarışlarda iştirak edə biləcək güclü yığma komandaların formalaşdırılması məqsədilə keçirilən birinciliyin final görüşündə "Naxçıvan" və "Culfa" komandaları üz-üzə gəlib. Görüş birincilərin 6:0 hesablı qələbəsi ilə başa çatıb. "Ordubad" komandası birinciliyi üçüncü pillədə başa vurub.

Sonda qalib komandanın idmançıları diplom, medal və kubokla təltif ediliblər.

✍ **Ceyhun MƏMMƏDOV**

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Dövlət Universiteti aşağıdakı dekanlıq və kafedralar üzrə müsabiqə elan edir*

**Fakültələr üzrə dekan vəzifəsini tutmaq üçün**

1. Tarix-filologiya
2. Fizika-riyaziyyat

***Kafedra müdiri vəzifəsini tutmaq üçün***

1. Azərbaycan dili və ədəbiyyatı
2. Bələdiyyə və turizm
3. Çağırışaqədərki hazırlıq və mülki müdafiə
4. Coğrafiya
5. Dünya iqtisadiyyatı və menecment
6. Elektronika və informasiya texnologiyaları
7. İngilis dili və metodika
8. İnformatika
9. Mühasibat uçotu və maliyyə
10. Musiqi təlimi
11. Rus və Şərq dilləri
12. Hüquq fənləri
13. Ümumi riyaziyyat
14. Xalq çalğı alətləri

***Kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün***

1. Elektronika və informasiya texnologiyaları kafedrası – müəllim 1 yer (0,5 ştat)
2. Fəlsəfə və sosial iş kafedrası – müəllim 1 yer (0,5 ştat)
3. Kimya kafedrası – müəllim 1 yer (0,5 ştat)
4. İngilis dili və metodika kafedrası – müəllim 1 yer (0,5 ştat)
5. Ümumi tarix kafedrası – müəllim 1 yer
6. Ümumi təbabət və kliniki fənlər kafedrası – baş müəllim 1 yer (0,5 ştat)
7. Coğrafiya kafedrası – müəllim 1 yer (0,5 ştat)

*Müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.*

***Ünvan: Naxçıvan şəhəri, universitet şəhərciyi***
***Telefon: (036)545-23-66/10-01***

### *İtmişdir*

Şərur Rayon Kommunal Müəssisələri Kombinatına məxsus JACXZL5163ZYS3 markalı avtomobilin 68AC034 nömrəsi itdiyindən etibarsız sayılır.

***

Abbasov Fəxrəddin Əmir oğlunun adına olan JN-1213 inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Hacıyev Tofiq Məmməd oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 1058